Yeni Azərbaycan.- 2022.- 20 may



# "Portretlərimin hamısı mənim üçün əzizdir. Çünki onlar mənim..."

## Tahir Salahovun anım günüdür



Azərbaycanın Xalq rəssamı, Dövlət mükafatları laureatı Tahir Salahovun ölümündən bir il ötür. Bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizdə yeni səhifələr açan Tahir Salahovun mayın 21-də anım günüdür.

Bir əsrə yaxın yaradıcılıq yolu keçmiş böyük sənətkar 1928-ci il noyabrın 29-da Bakı şəhərində anadan olub. Atası 1937-ci il repressiyasının qurbanlarından olduğundan rəssamın uşaqlıq illəri çətin keçib. Bəlkə də uşaqlıqda çəkdiyi çətinlik və iztirablar onun həm istedadlı rəssam, həm də əsl insan kimi formalaşmasında birbaşa rol oynayıb. 1951-ci ildə Bakıda Ə.Əzimzadə adına Rəssamlıq məktəbini, 1957-ci ildə isə Surikov adına Rəssamlıq İnstitutunu bitirib.

O, dünya miqyasında tanınan görkəmli rəssam olmaqla yanaşı, həm də əsl ziyalıdır. Mübaliğəsiz demək olar ki, Tahir Salahov Azərbaycan incəsənətinin ən böyük ustalarından biri və rəngkarlıqda "sərt üslub"un banisidir. Dünya şöhrətli rəssamın Azərbaycan rəngkarlığının inkişafında bütöv bir dövrü təşkil edən əsərləri bu gün dünyanın mötəbər muzeylərində sərgilənir. Tahir Salahovun tabloları təkcə Azərbaycan incəsənətinin deyil, həm də dünya təsviri sənətinin inciləri sırasında qərarlaşır. Xüsusən də Tretyakov qalereyasında rəssamın bir çox əsərləri nümayiş olunur. Onlardan "Vyana stulu ilə natürmort", "Nar gülləri ilə natürmort", "Aydan", "Bəstəkar D.Şostakoviçin portreti" və s. adları çəkmək olar.

Tahir Salahov həm də Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirib. Böyük sənətkar haqlı olaraq təsviri incəsənətin klassiki və bütöv bir üslubun banilərindən biri hesab edilir. Onun əsərləri dünya mədəniyyəti xəzinəsinə, XX və XXI əsrlərin təsviri incəsənətinin qızıl fonduna daxildir.

Böyük sənətkarın yaradıcılığında portret ən çox müraciət etdiyi janrdır. "Portretlərimin hamısı mənim üçün əzizdir. Çünki onlar mənim doğmalarımın, sevdiyim insanların, əsl sənətkarların portretləridir. Mən o əsərləri sahiblərinə görə çox sevirəm, zəhmətimə görə yox", - deyə etirafı ilə ürəklərə yol tapan T.Salahovun yaradıcılığında insanı bəşəriyyətin ən ali varlığı kimi əsas planda görürük. Rəssam ailəsini və dostlarını böyük məhəbbətlə təsvir edir. "Aydan", "Alagöz şərq nağılı", anası Sona xanımın və həyat yoldaşının silsilə portretləri mehribanlığı və isti münasibəti təcəssüm etdirir.

Fikrət Əmirov, Mirzə Ələkbər Sabir və Rəsul Rzanın rəssam tərəfindən çəkilmiş portretləri eləcə də "Səhər eşalonu" və "Rezervuar parkı" adlı sənaye peyzajları, "Abşeron qadınları", "Köhnə Bakı", "Sənə, bəşəriyyət!", "Səhər ovu", "Nardaran qarpızları" tabloları, bəstəkar Dmitri Şostakoviçin, şair Rəsul Rzanın, bəstəkar Qara Qarayevin portreti, eləcə də, "Xəzər bu gün" və "Qız qalası" əsərləri sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Şöhrəti dünyanı dolaşan görkəmli rəssam harada yaşamasından, çalışmasından asılı olmayaraq, Vətəninə çox bağlı idi. "Xəzər - onun mavi gözəlliyi həmişə mənimlədir", - söyləyən Tahir Salahov hər fürsətdə yurdunun gözoxşayan guşələrini tablolarında canlandırırdı. Rəssam xüsusilə boya-başa çatdığı doğma Abşeronunu böyük məhəbbətlə təsvir edirdi. Neft hopmuş torpaq, mavi səma fonunda fırlanan əlvan yel dəyirmanları, köhnə tikililər, tərk edilmiş bağ evləri rəssamın fırçasında yeni həyat qazanmışdı.

Məhsuldar yaradıcılıq yolu keçən sənətkarın son illərə aid əsərlərindən danışarkən Azərbaycan incəsənətinin şedevrləri sayıla bilən ulu öndər "Heydər Əliyevin portreti"ni, "Mstislav Rostropoviçin portreti"ni, "Odlar yurdu" triptixini, "Yazıçı Anarın portreti"ni və daha neçə-neçə peyzaj və natürmortlarını qeyd etmək lazımdır. Dünya miqyasında aparıcı portret ustası olan T.Salahov əsərlərində insanı bəşəriyyətin ən ali varlığı kimi canlandırır. Bu xüsusiyyətlər yuxarıda qeyd edilən portretlərə də xasdır.

Vurğulamaq lazımdır ki, 2018-ci ildə 90 illik yubileyi ərəfəsində Prezident İlham Əliyev Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə Tahir Salahovu 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edib.

Hazırda AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar, Fotoneqativ və Sənədli mənbələr fondlarında ona (1928-2021) məxsus materiallar qorunur.

Xalq rəssamı ötən il mayın 21-də vəfat edib. I Fəxri xiyabanda torpağa tapşırılıb. Görkəmli sənətkar Tahir Salahovun işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

***MÜŞFİQƏ***